## vBooks mobil proqramının üstünlükləri

Şəxsi veb saytların yaradılması ilə yanaşı, mobil əlavələrin, yəni paralel olaraq informasiyanı potensial istifadəçilərin (oxucuların) müəyyən seqmentinə təqdim edəcək proqramların tətbiqi də müasir dövrün əsas əlamətlərindən biridir.

*Mobil proqramların tətbiqinin konkret üstünlükləri nədən ibarətdir?*

- Saytlardan fərqli olaraq, **vBooks** proqramı çox tez yüklənir, çünki o şəbəkədən şəkilləri və başqa "ağır" elementləri "çəkmir".
- **VBooks** mobil proqramı həm virtual kitabxananın istifadəçisi üçün onun kitablarla bağlı cari və sonrakı əməliyyatlarının bir növ təşkilatçısıdır. Bundan əlavə, bu proqram istifadəçinin yüklədiyi virtual kitabları üçün anbar funksiyasını yerinə yetirir.
- **VBooks** mobil proqramı kitablar haqqında informasiyanın toplanması və mübadiləsi üçün alət kimi müvəffəqiyyətlə istifadə oluna bilər. Müvafiq olaraq, öz sahəsində potensial oxuculara bu proqramı daha əvvəl təklif edən təşkilatlar müəyyən üstünlüklər əldə edəcəklər. Başqa sözlə desək ki, mobil proqramlardan istifadənin bu seqmentində rəqabət güclü deyildir.
- Virtual kitabxananın təhkim edildiyi təşkilatın öz proqramını təbliğ etməsi bu təşkilatın öz imicini yüksəltməsinə imkan verir. Belə bir layihənin faktiki olaraq işə salınması virtual kitabxananın öz potensial və cari oxucularına qayğısının göstəricisidir, onlar hökmən bu qayğını qiymətləndirəcəklər.
- Proqramın işə salınması faktı özlüyündə çox gözəl reklam vasitəsi kimi, oxucuları cəlb etməyin başqa üsullarından da istifadə etməyə imkan verir.
- Mobil proqramlar saytla inteqrasiya oluna bilər, bu isə sayta aid bütün yenilənmələri, xəbərləri və yeni virtual kitabların yerləşdirilməsi haqqında informasiyanı həmin mobil qurğulara yükləməyə imkan verəcək. Bu halda bütün istifadəçilər internetdə müvafiq səhifəni bilavasitə yükləməyə vaxt itirmədən, öz mobil telefonundakı proqramın sayəsində həmin dəyişikliklərdən xəbər tutacaqlar.
- **VBooks** mobil proqramı istifadəçilər üçün tamamilə pulsuzdur. Proqramdan sərbəst istifadə imkanı istifadəçilərin sayını artıracaq.
- **VBooks** mobil proqramı virtual kitabxanadakı kitablar haqqında informasiyanı və elektron kitabların özlərini təqdim edəcək. Bu halda virtual kitabxana etibarlı, yoxlanmış və operativ xidmət edilən informasiya mənbəyi olacaq.
- **VBooks** mobil proqramı son illərdə olduqca dinamik şəkildə artmaqda olan çox geniş auditoriyaya ünvanlanmışdır. İndiyə qədər bütün dünyada təxminən 200 milyon smartfon satılmışdır və onların istehsalı yüksək səviyyədə qalır, çünki belə qurğulara tələbat daim artır.

*Beləliklə, ən azı 9 səbəbə görə, mobil proqramları virtual kitabxanaların təbliği və inkişafı üçün perspektivli alət hesab etmək lazımdır.*